BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Sosial-siyasi elmlər seriyası* *2014*

# HÜQUQ

**UOT 343.1**

## CİNAYƏT MÜHAKİMƏ İCRAATININ PRİNSİPLƏRİNİN AYRI-AYRI HÜQUQ İNSTİTUTLARININ PROSESSUAL FORMASINA TƏSİRİ XÜSUSİYYƏTLƏRİ

**Ə.Ə.QASIMOV**
***Bakı Dövlət Universiteti***
***haci-arastun@rambler.ru***

*Məqalədə cinayət mühakimə icraatının prinsiplərinin ayrı-ayrı hüquq institutlarının prosessual formasına təsiri xüsusiyyətləri araşdırılmışdır.*

*Qeyd edilmişdir ki, cinayət mühakimə icraatının prinsipləri bir sistemə malikdir və onlar cinayət-prosessual hüquq institutlarına da bir sistem kimi təsir edirlər. Bu fikirlərdən çıxış edərək «cinayət prosesində məhkəmə nitqləri» və «cinayət prosesinin prinsipləri» kateqoriyalarının qarşılıqlı əlaqəsi məsələsinə diqqət yetirilmiş, cinayət prosesinin bəzi prinsiplərinin digərlərinə nisbətən məhkəmə nitqləri və onların realizə edilməsi prosedurlarına, şərti olaraq, daha çox təsir göstərməsi tezisindən çıxış edilmişdir.*

**Açar sözlər:** hüquq institutu, cinayət mühakimə icraatı, cinayət prosesi

Cinayət mühakimə icraatının prinsipləri cinayət prosesini həyata keçirən orqanlar və cinayət prosesinin iştirakçıları tərəfindən əməl edilməli olan təməl müddəalar, rəhbər tutulmalı olan hüquqi ideyalar, riayət edilməli olan əsas qaydalardır (16, 18; 4, 340). Cinayətkarlığa qarşı mübarizə siyasəti və cinayət mühakimə icraatının bütün sistemi, ilk növbədə, cinayət prosesinin prinsiplərinə əsaslanır və yalnız bundan sonra məhz prinsiplərə uyğun gələn və ya onların şərtləndirdiyi ayrı-ayrı hüquq institutlarının tətbiq edilməsi hesabına təşkil olunur. Cinayət mühakimə icraatının prinsipləri orqanik əlaqədə çıxış etməklə cinayət prosesinin vahid və ziddiyyətsiz formasını təmin edir (7, 4-5; 15, 276). Cinayət mühakimə icraatının prinsipləri ayrı-ayrı hüquq institutlarının prosessual formasına müxtəlif cür təsir göstərir. Bu, onunla izah edilə bilər ki, ümumi mənada hüquq prinsipləri, o cümlədən, cinayət mühakimə icraatının prinsipləri özündə bir neçə hüquq funksiyasını və hüquqi tənzimetmə metodunu (məsələn,

həm icazə vermə, həm qadağan etmə və s.) birləşdirə bilir. Bütövlükdə hüququn, eləcə də, cinayət mühakimə icraatı prinsiplərinin bu xassəsi prinsiplərin ali hüquqi qüvvəsi və onların təyinatından irəli gəlir (17, 27; 14, 125).

AR CPM-in 9-cu maddəsi cinayət mühakimə icraatının prinsiplərinin təyinatının nədən ibarət olması məsələsinə müəyyən qədər (*burada «müəyyən qədər» ifadəsindən ona görə istifadə edirik ki, AR CPM-in 9-cu maddəsinin bəzi müddəalarının natamam formulə edildiyini düşünürük – Ə.Qasımov*) aydınlıq gətirir. AR CPM-in 9.1.1-ci maddəsinə əsasən, cinayət mühakimə icraatının prinsipləri cinayət təqibinin həyata keçirilməsinin əsasını təşkil edən qaydaları müəyyən edir. İstinad edilən bu qanun müddəası cinayət mühakimə icraatı prinsiplərinin əhəmiyyətli bir xassəsinə aydınlıq gətirir – onlar, prosessual fəaliyyətin əsasını təşkil edən qaydalar müəyyən edirlər. Fikrimizcə, prosessual fəaliyyətin əsasını təşkil edən qaydalar dedikdə, konkret həyat hallarına uyğunlaşdırılmamış, konkret situasiyalara uyğun olaraq detallaşdırılmamış, lakin prosessual fəaliyyətin cavab verməli olduğu ümumi və əsas tələbləri nəzərdə tutan qaydalar başa düşülməlidir. Bununla belə, AR CPM-in 9.1.1-ci maddəsində yalnız cinayət təqibinin adının çəkilməsi cinayət mühakimə icraatının prinsiplərinin təyinatı ilə bağlı bir qədər anlaşılmazlıq yaradır. Cinayət təqibi ifşaedici və ittihamedici xarakterli fəaliyyət olub, yalnız ittiham tərəfinə aid olan subyektlər tərəfindən yerinə yetirilir və bir prosessual fəaliyyət kimi cinayət hadisəsinin müəyyən edilməsinə, araşdırılan hadisədə cinayət əlamətlərinin olub-olmamasının yoxlanılmasına, cinayət törətmiş şəxslərin ifşa edilməsinə, rəsmi ittihamın formalaşdırılmasına və təqib olunan şəxslərə qanunla müəyyən edilmiş qaydada ittiham irəli sürülməsinə, həmin ittihamın məhkəmədə müdafiə edilməsinə və dövlətdən (məhkəmədən) cinayət törətməkdə təqsirləndirilən şəxsə qarşı cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin tələb edilməsinə (*Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi zəruri hallarda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsini də cinayət təqibinin məqsədləri sırasına aid edir – Ə.Qasımov*) yönəlmişdir (5, 9-10; 13, 23-24; 9, 80-81). Göründüyü kimi, cinayət təqibi cinayət-prosessual fəaliyyətin yalnız bir növünü təşkil edir. Cinayət prosesində təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları cinayətlərin açılması, cinayət işlərinin istintaqı və onların həlli üzrə öz funksiyalarını həyata keçirərkən qanuna əsaslanaraq qanunla nəzərdə tutulmuş prosessual qaydada fəaliyyət göstərirlər. Onların cinayət işlərinin istintaqı və həlli zamanı həyata keçirdikləri hərəkətlər şahidlərin dindirilməsi, şübhəli şəxslərin tutulması, təqsirləndirilən şəxs qismində cəlb etmə, istintaq orqanı tərəfindən qətimkan tədbirinin seçilməsi, şahidin və ya təqsirləndirilən şəxsin məhkəmə istintaqında məhkəmə tərəfindən dindirilməsi, digər istintaq hərəkətlərinin həyata keçirilməsi və s. prosessual hərəkətlərdir, çünki onlar prosessual qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilirlər və həmin qanunla müəyyən edilmiş prosessual formada təzahür olunurlar. Bundan başqa, prosessual hərəkətlər cinayət prosesində iştirak edən şəxslər, yəni təqsirləndirilən şəxs və onun müdafiəçisi, zərər çəkmiş şəxs və

onun nümayəndəsi tərəfindən də həyata keçirilir. Təqsirləndirilən şəxs izahatlar verir, özünə bəraət qazandıran sübutlar təqdim edir, müdafiəçi isə təqsirləndirilən şəxsə istinad edilən ittihamı təkzib etmək və ya təqsirləndirilən şəxsin məsuliyyətini yüngülləşdirən halların müəyyən edilməsi üzrə bir sıra hərəkətlər edir. Zərər çəkmiş şəxs isə bir sıra elə hüquqlara malikdir ki, onların realizəsi ilə zərərçəkmiş öz maraqlarını müdafiə edir və ibtidai istintaqda və məhkəmə araşdırmasında iştirak etmiş olur. Həm cinayət işi üzrə icraatı həyata keçirən dövlət orqanlarının, həm də cinayət mühakimə icraatında iştirak edən şəxslərin həyata keçirdikləri bütün prosessual hərəkətlərin məcmuyu cinayət-prosessual fəaliyyəti təşkil edir. Başqa sözlə, cinayət-prosessual fəaliyyət – cinayət prosesinin iştirakçıları tərəfindən prosessual qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilən hərəkətlərin məcmuyudur (10, 68-69; 11, 8-9).

Belə olan təqdirdə, AR CPM-in 9.1.1-ci maddəsində cinayət-prosessual fəaliyyətin yalnız bir istiqamətinin – cinayət təqibinin adının çəkilməsi cinayət mühakimə icraatının prinsiplərinin təyinatı barədə səhv təsəvvür yarada bilər, sanki cinayət prosesinin prinsipləri yalnız cinayət təqibinin, yəni ifşa və ittiham yönümlü prosessual fəaliyyətin həyata keçirilməsinin əsasını təşkil edən qaydaları müəyyən edir. Halbuki, cinayət-prosessual fəaliyyətin ifşa və ittiham yönümlü növündən başqa, müdafiə və təminat yönümlü, nəzarət və işin həlli yönümlü növləri də mövcuddur. Cinayət prosesinin prinsipləri də təkcə ifşa və ittiham yönlü fəaliyyətin deyil, cinayət-prosessual fəaliyyətin bütün növlərinin əsasını təşkil edən qaydaları müəyyən edir. Bu fikrin sübutu üçün AR CPM-in II fəslində təsbit edilmiş iki prinsipin adının çəkilməsini kifayət edən, inandırıcı arqument hesab edirik – hakimlərin müstəqilliyi (AR CPM-in 25-ci maddəsi) və bəraət qazanmış şəxsin pozulmuş hüquqlarının bərpasının təminatı (AR CPM-in 36-cı maddəsi) prinsipləri. Göründüyü kimi, bu prinsiplər ifşa və ittiham fəaliyyətinin – cinayət təqibinin deyil, işin həll edilməsinə yönəlmiş və müdafiə ilə bağlı fəaliyyətlərin əsasını təşkil edən qaydalar müəyyən edir.

Yuxarıda qeyd olunanlar əsasında AR CPM-in 9.1.1-ci maddəsinin öz təyinatını daha dəqiq yerinə yetirməsi üçün həmin maddədə «cinayət təqibinin» sözlərini «cinayət-prosessual fəaliyyətin» sözləri ilə əvəz etməyi təklif edirik. Bu təklifin bilavasitə bizim tədqiqat üçün əhəmiyyəti isə ondan ibarətdir ki, AR CPM-in 9.1.1-ci maddəsinin hazırki redaksiyasını məhkəmə nitqlərinə münasibətdə şərh etdikdə, belə çıxacaqdır ki, AR CPM-in 9.1.1-ci maddəsi cinayət prosesi prinsiplərinin yalnız ifşaedici və ittihamedici məhkəmə nitqlərinə təsirinə işarə edir. Bizim təklif etdiyimiz redaksiyada isə, AR CPM-in 9.1.1-ci maddəsi cinayət-prosessual fəaliyyətin bütün növlərini əhatə edir və cinayət prosesinin prinsiplərinin təkcə ifşaedici və ittihamedici məhkəmə nitqlərinə təsirinə deyil, həm də məhkəmə nitqlərinin realizəsi ilə bağlı bütün digər hallara təsirinə işarə edir. Beləliklə, AR CPM-in 9.1.1-ci maddəsinin məzmunundan cinayət mühakimə icraatının prinsiplərinin ayrı-ayrı prosessual hüquq institutlarının prosessual formasına təsirinin birinci növünü müəyyən etmiş olduq – institutun əsasını təşkil edən qaydaların müəyyən edilməsi. Həqiqətən

də, tədqiqatın sonrakı hissələrində məhkəmə nitqlərinin realizə edilməsi probleminə münasibətdə daha müfəssəl şəkildə görəcəyimiz kimi, cinayət prosesinin prinsipləri ayrı-ayrı hüquq institutlarının konkret realizə mexanizmlərini təsbit etməsələr də, bu mexanizmlərin əsaslandığı əsas qayda və şərtləri müəyyən edirlər.

AR CPM-in 9.1.2-ci maddəsi cinayət mühakimə icraatının prinsiplərinin başqa bir təyinatını təsbit edir – insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsinin təmin edilməsi. Ümumiyyətlə, insan hüquqlarının məhdudlaşdırılması iki mənada başa düşülə bilər. Birinci mənada insan hüquqlarının məhdudlaşdırılması dedikdə, əvvəllər tanınmış və qanunla təsbit edilmiş hüququn bir hissəsinin dövlətin, cəmiyyətin və şəxsiyyətin hüquq və ya vəzifələrinin bərpasını tələb edən müxtəlif situasiyalardan asılı olan səbəblərə görə geri alınması başa düşülür. Belə halda insan hüquqlarının məhdudlaşdırılması sosial əhəmiyyətli motivlərlə, ağlabatan hədlərdə və müəyyən edilmiş prosedurlar daxilində mümkündür. Bu zaman hüquq və azadlıqların məhdudlaşdırılması vasitələri kimi hüquqların konkret realizə variantına qadağa qoyulması, qanunla müəyyən edilmiş hallarda hüquqdan istifadə etmə üzərinə qadağa qoyulması, hüququn yalnız konkret realizə variantlarının müəyyən edilməsi, hüquqdan istifadə etməməyə görə vəzifə və ya məsuliyyətin müəyyən edilməsi çıxış edir. Hüquqların bu mənada məhdudlaşdırılması zamanı dövlət yalnız əsas hüquqların realizə mexanizmlərinə müdaxilə edə bilər, lakin bunun üçün ayrı-ayrı fərdlərə məxsus insan hüquqlarının məhdudlaşdırılması ictimai sabitlik və təhlükəsizlik üçün zəruri olmalıdır. Məsələn, əgər kiminsə fəaliyyəti bütövlükdə cəmiyyət üçün təhlükə yaradarsa və ya cəmiyyətin digər üzvlərinin öz hüquqlarından istifadə etməsinə maneə yaradarsa, həmin şəxsin hüquqlarının məhdudlaşdırılması birinci mənada məhdudlaşdırmaya aid olacaqdır. İnsan hüquqlarının birinci mənada məhdudlaşdırılmasının yolverilən olmasına dair müddəalar konstitusion səviyyədə təsbit və təmin edilir. Konstitusiya əsas insan hüquqlarının məhdudlaşdırılmasının yolverilənlik kriteriyalarının sistemini müəyyən etməsə də, həmin hüquqların hədlərinə dair konseptual ideyanı əks etdirir – hər bir fərdin hüququ digər fərdin hüququ və bütövlükdə cəmiyyətin maraqları başlanan yerdə bitir. İkinci mənada insan hüquqlarının məhdudlaşdırılması mümkün davranış imkanlarının sərhədlərinin müəyyən edilməsini ehtiva edir, bu zaman insana verilən hüququn konkret məzmunu müəyyən edilir. Bu halda hüquq insana verilən azadlığın ölçülərini əks etdirən kateqoriya kimi çıxış edir (8, 285-286). Cinayət prosesinin prinsipləri ayrı-ayrı hüquq institutlarının realizəsi zamanı insan və vətəndaşın hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin etmək üçün ya konkret qadağalar müəyyən edir, yaxud da, hüquq və azadlıqların məhdudlaşdırılmasına yol verən prosedurların xarakterini müəyyən edir (6, 66). Belə ki, AR CPM-in 10.2-ci maddəsinə (qanunçuluq prinsipi) əsasən, Azərbaycan Respublikasının qüvvəyə minmiş və dərc edilmiş qanunu ilə müəyyən olunan əsaslardan və qaydalardan

kənar heç kəsin cinayət təqibi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə, tutulmasına, həbsə alınmasına, axtarılmasına, məcburi gətirilməsinə və digər prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, habelə məhkum edilməsinə, cəzalandırılmasına, hüquq və azadlıqlarının digər formada məhdudlaşdırılmasına yol verilmir. AR CPM-in 12.4-cü maddəsinə (konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması prinsipi) əsasən, prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə əlaqədar şəxsin Konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması barədə qərar yalnız zərurət olduqda CPM ilə müəyyən edilmiş hallarda və qaydada qəbul edilə bilər. AR CPM-in 14.1-ci maddəsinə (azadlıq hüququnun təmin edilməsi prinsipi) əsasən, hər kəsin azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda onun tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi ilə məhdudlaşdırıla bilər. AR CPM-in 16.1-ci maddəsinə (şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi prinsipi) əsasən, cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ CPM-də nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz. AR CPM-in 17.2-ci maddəsinə (mənzil toxunulmazlığı hüququnun təmin edilməsi prinsipi) əsasən, CPM-də nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, orada axtarış və mülkiyyət hüququnu məhdudlaşdıran digər istintaq və prosessual hərəkətlər, bir qayda olaraq, məhkəmənin qərarı əsasında məcburi həyata keçirilir. AR CPM-in 18.1-ci maddəsinə (mülkiyyət hüququnun təmin edilməsi prinsipi) əsasən, cinayət təqibi gedişində CPM-də nəzərdə tutulmuş hallardan başqa, heç kəsin mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ məhdudlaşdırıla bilməz. AR CPM-in 19.6-cı maddəsinə (hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi prinsipi) əsasən, cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsi bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməz. AR CPM-in 35-ci maddəsinə (məhkəməyə təkrar müraciət etmək hüququnun təmin edilməsi prinsipi) əsasən, CPM-də nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesi iştirakçısının cinayət işinin və ya cinayət təqibi ilə bağlı digər materialın baxılmasında məhkəmənin qəbul etdiyi prosessual qərar və hərəkətlərdən yuxarı məhkəməyə şikayət etmək hüququ vardır. Məhkum olunmuş hər bir şəxs yuxarı məhkəməyə şikayət verərək, barəsində çıxarılmış məhkəmə hökmünün qanunsuz və əsassız olması ilə əlaqədar işə yenidən baxılmasını xahiş etmək, eləcə də, barəsində çıxarılmış hökmlə təyin olunmuş cəzanın ağırlığı ilə əlaqədar onun yüngülləşdirilməsini xahiş etmək kimi hüquqları həyata keçirir və məhkumun qeyd edilən hüquqlarının məhdudlaşdırılması yolverilməzdir. AR CPM-in 36.2-ci maddəsinə (bəraət qazanmış şəxsin pozulmuş hüquqlarının bərpasının təmin edilməsi prinsipi) əsasən, vəzifə səlahiyyətlərindən sui-istifadə və ya cinayət nəticəsində zərər

çəkmiş, habelə təqsirsiz məhkum olunmuş, qanunsuz həbsdə saxlanılmış, yaxud cinayət prosesi gedişində hüquqları digər formada məhdudlaşdırılmış şəxslərin hüquqları CPM ilə və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada bərpa olunur.

Beləliklə, AR CPM-in 9.1.2-ci maddəsinin məzmunundan cinayət mühakimə icraatının prinsiplərinin ayrı-ayrı prosessual hüquq institutlarının prosessual formasına təsirinin ikinci növünü müəyyən etmiş olduq. Prinsiplər insanların cinayət mühakimə icraatı daxilində malik olduqları hüquqları bəyan etmək və onların pozulması və ya məhdudlaşdırılmasına dair konkret qadağalar müəyyən etməklə şəxsiyyəti insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından müdafiə etmək üçün ayrı-ayrı hüquq institutlarının prosessual formasının dövlət tərəfindən bəyan edilmiş hüquqların və təsbit edilmiş qadağaların məzmununa uyğunlaşdırılmasını şərtləndirir. Cinayət prosesinin prinsipləri insan hüquqlarının əsas təminatlarını müəyyən edir (12, 68-69).

AR CPM-in 9.1.3-cü maddəsi cinayət mühakimə icraatının prinsiplərinin ayrı-ayrı prosessual hüquq institutlarının prosessual formasına təsirinin üçüncü növünü müəyyən edir. Həmin maddəyə əsasən, cinayət mühakimə icraatının prinsipləri hər bir cinayət təqibinin qanuniliyini və əsaslılığını müəyyən edir. AR CPM-in 9.1.3-cü maddəsi cinayət prosesinin prinsiplərinin meyar müəyyənedici funksiyasına işarə edir. Maddəni daha dəqiq izah etmək istəsək, qeyd etməliyik ki, əslində, hər bir cinayət təqibinin qanuniliyini və əsaslılığını cinayət prosesinin prinsipləri müəyyən etmir, hər bir cinayət təqibinin qanuniliyi və ya qeyri-qanuniliyi, həmçinin, əsaslılığı, yaxud əsassız olması cinayət prosesinin prinsipləri vasitəsilə müəyyən edilir. Əgər cinayət təqibinin gedişatı və cinayət təqibi üzrə icraat cinayət prosesinin prinsiplərinə əməl edilmişdirsə, cinayət təqibi qanuni və əsaslı, bu prinsiplərə əməl edilməmişdirsə, cinayət təqibi müvafiq olaraq qanunsuz və əsassız hesab ediləcək, cinayət prosesinin prinsiplərinin pozulması və onlara əməl edilməməsi isə cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb olacaqdır. Bu mənada, cinayət prosesinin prinsipləri cinayət təqibi üzrə aparılan bütün icraatın qiymətləndirilməsi meyarlarını müəyyən edirlər. Cinayət prosesinin hər bir prinsipi bu və ya digər hüquq institutunun qanuna uyğunluğu və ya onun əsaslı şəkildə realizə edilməsi üçün şərtlər müəyyən edir.

Bütün qeyd edilənləri ümumiləşdirərək, belə nəticə çıxarmaq olar ki, cinayət mühakimə icraatının prinsipləri, bütün cinayət-prosessual hüquq institutlarına, o cümlədən, məhkəmə nitqlərinin də realizə edilməsinin prosessual formasına üç əsas istiqamətdə təsir göstərir. Cinayət mühakimə icraatının prinsipləri hüquq institutlarının, o cümlədən, məhkəmə nitqlərinin realizə edilməsinin əsas qaydalarını müəyyən edir və qanunvericiliyin digər normalarında bu qaydaların daha detallı şəkildə tənzimlənməsini şərtləndirir. Cinayət mühakimə icraatının prinsipləri cinayət-prosessual hüquq münasibətləri sahəsində insan və vətəndaşın hüquq və azadlıqlarını bəyan edir, onların pozulması və məhdudlaşdırılmasına dair qadağalar nəzərdə tutur, eyni zamanda, bu hüquqların məh-

dudlaşdırılmasının qanunla yol verilən hallarını müəyyən edir. Bununla da, cinayət mühakimə icraatının prinsipləri bütün cinayət-prosessual hüquq institutlarının, o cümlədən, məhkəmə nitqlərinin realizə mexanizmləri daxilində hüquqtəminedici elementin mövcudluğunu şərtləndirir. Heç bir hüquqtəminedici elementə malik olmayan və yalnız hüquq və azadlıqların məhdudlaşdırılması elementi əsasında formalaşmış hüquq institutları cinayət mühakimə icraatının prinsiplərinə zidd gələn hüquq institutu kimi qəbul edilir və bu institutun tətbiqi istisna olunur. Məhz cinayət mühakimə icraatının prinsiplərinin hesabına hətta mahiyyətinə görə sırf məcburiyyətdən ibarət olan qətimkan tədbirləri, eləcə də, digər prosessual məcburiyyət tədbirləri də öz realizə mexanizmlərində hüquqtəminedici elementlərə (prosessual məcburiyyət üzərində prokuror nəzarəti, prosessual məcburiyyət üzərində məhkəmə nəzarəti, prosessual məcburiyyətə məruz qalmış şəxslərin hüquqlarının dairəsi və s.) malikdirlər. Nəhayət, cinayət mühakimə icraatının prinsipləri hər bir prosessual hüquq institutunun və onun realizə edilməsi prosedurlarının qanuniliyi və əsaslılığı meyarlarını müəyyən edir.

Qeyd edilməlidir ki, cinayət mühakimə icraatının prinsipləri bir sistemə malikdir və onlar cinayət-prosessual hüquq institutlarına da bir sistem kimi təsir edirlər. Lakin bu, hər hansı bir prosessual hüquq institutuna bir prinsipin digərindən daha çox təsir etməsini istisna etmir. Bu hal, bir prinsipin digərinə nisbətən daha üstün və ya daha az qüvvəli olması ilə deyil, daha çox konkret götürülmüş cinayət-prosessual hüquq institutunun öz təbiəti və mahiyyəti ilə bağlı olan bir haldır. Məsələn, heç kəsdə şübhə doğurmur ki, hakimlərin müstəqilliyi, tərəflərin çəkişməsi, cinayət mühakimə icraatının aşkarlığı və s. prinsiplər daha çox məhkəmədəki icraata məxsus hüquq institutlarına öz təsirini göstərir, nəinki cinayət işinin başlanması mərhələsinə məxsus hüquq institutlarına. Lakin mütləq qeyd edilməlidir ki, bu zaman az və ya çox təsirdən yalnız şərti olaraq danışmaq mümkündür, əslində cinayət mühakimə icraatının prinsipləri eyniqüvvəli və cinayət mühakimə icraatı sisteminin quruluşu və normal fəaliyyət göstərməsi üçün eyni dərəcədə əhəmiyyətlidirlər.

Biz də, məhz bu fikirlərdən çıxış edərək «cinayət prosesində məhkəmə nitqləri» və «cinayət prosesinin prinsipləri» kateqoriyalarının qarşılıqlı əlaqəsi məsələsinə diqqət yetirərkən, cinayət prosesinin bəzi prinsiplərinin digərlərinə nisbətən məhkəmə nitqləri və onların realizə edilməsi prosedurlarına, şərti olaraq, daha çox təsir göstərməsi tezisindən çıxış etmişik. Bir daha vurğulayırıq ki, bununla biz, cinayət prosesinin digər prinsiplərinin məhkəmə nitqlərinə təsir etmədiyini iddia etmirik, sadəcə olaraq, tərəfimizdən aşağıda tək-tək nəzərdən keçirilmiş prinsiplərin cinayət mühakimə icraatında məhkəmə nitqlərinin realizə edilməsi xüsusiyyətlərinə daha çox təsir göstərdiyini bildiririk.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası.
2. Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixli Cinayət Məcəlləsi.
3. Azərbaycan Respublikasının 1 sentyabr 2000-ci il tarixli Cinayət-Prosessual Məcəlləsi.
4. Анастасов С.В. Научное представление о принципах уголовного процесса // «Черные дыры» в Российском Законодательстве, 2007, № 4, с. 339-340.

5. Бандурин С.Г., Шишкина Е.В. Понятие, содержание и значение института уголовного преследования // Следователь, 2005, № 9, с. 9-13.
6. Бирюков И.А., Кругликов А.П. Роль принципов уголовного процесса в соблюдении и защите прав и свобод граждан / Защита субъективных прав: история и современные проблемы. Материалы II Межвузовской научно-практической конференции.г. Волжский, 11 апреля 2000 года, с. 66-68.
7. Газетдинов Н.И. Взаимообусловленность принципов уголовного права, уголовного процесса и уголовной политики государства / Актуальные проблемы уголовного судопроизводства. Материалы Всероссийской научной конференции. Казань, 13-14 мая 2004 г., с. 3-11.
8. Глухарева Л.И. Права человека в современном мире (социально-философские основы и государственно-правовое регулирование). М.: Юристъ, 2003, 303 с.
9. Жук О.Д. О понятии и содержании функции уголовного преследования в уголовном процессе России // Законодательство, 2004, № 2, с. 77-87.
10. Золотарев А.С. К вопросу о понятии уголовно-процессуальной деятельности / Состояние, тенденции и перспективы развития уголовно-исполнительной системы. Материалы научно-практической конференции. Липецк, 4 октября 2004 г., с. 68-72.
11. Малахова Л.И. Уголовно-процессуальная деятельность: понятие, предмет и структура. Воронеж: Истоки, 2003, 134 с.
12. Мельников В.Ю. Роль принципов уголовного процесса в обеспечении гарантий прав личности // Закон и право, 2011, № 3, с. 67-70.
13. Неретин Н.Н. К вопросу о соотношении сущности понятий уголовного преследования и обвинения в уголовном судопроизводстве России // Уголовное судопроизводство, 2008, № 3, с. 23-24.
14. Отаров А.М. Принципы и функции права / Правовое наследие России и современность. Сборник материалов Всероссийской студенческой научно-практической конференции. Нальчик, 14-15 апреля 2007 г., с. 123-127.
15. Петухов Ю.Е. К проблеме реализации системы принципов уголовного процесса / Актуальные проблемы юридической науки и правоприменительной практики. Материалы 5-ой международной научно-практической конференции, г. Киров, 17 ноября 2006 г., с. 274-277.
16. Томин В.Т. Принципы отечественного уголовного процесса. Нижний Новгород, 2007, 80 с.
17. Уварова Е.А. Функции принципов права в правоприменении / Юридическая наука и правоприменение. Сборник тезисов докладов Всероссийской научно-практической конференции.г. Саратов, 1-2 июня 2012 г., с. 27-28.
18. http://az.trend.az/news/society/2286658.html
19. http://bizimyol.info/news/25437.html
20. http://www.etika.az/?page_id=37

## ОСОБЕННОСТИ ВЛИЯНИЯ ПРИНЦИПОВ УГОЛОВНОГО СУДОПРОИЗВОДСТВА НА ПРОЦЕССУАЛЬНУЮ ФОРМУ ОТДЕЛЬНЫХ ПРАВОВЫХ ИНСТИТУТОВ

**А.А.ГАСЫМОВ**

### РЕЗЮМЕ

В статье исследуются особенности влияния принципов уголовного судопроизводства на процессуальную форму отдельных правовых институтов.

Здесь отмечается, что принципы уголовного судопроизводства обладают единой системой, и, в качестве таковой, они оказывают влияние и на уголовно-процессуальные

правовые институты. Исходя из этих суждений, было обращено внимание на взаимовлияние категорий «судебные речи в уголовном процессе» и «принципы уголовного процесса», придерживаясь при этом тезиса об относительно большем влиянии некоторых принципов уголовного процесса (по сравнению с другими) на судебные речи и процедуры их реализации.

**Ключевые слова:** правовой институт, уголовное судопроизводство, уголовный процесс

## THE IMPACTS OF THE PRINCIPLES OF THE EXECUTION OF CRIMINAL JUDGEMENT ON THE PROCEDURAL FORMS OF LEGAL INSTITUTES

**A.A.GASIMOV**

### SUMMARY

The article studies the impacts of  the principles of the execution of criminal judgement on the procedural forms of legal institutes. It is noted that the principles of the criminal judgement make up a system and they impact to the criminal-procedural legal institutes as a system. Acting from these standpoints, the author focuses on the interrelation of the categories of “court speeches at criminal processes” and “the principles of the criminal process” and notes that some principles of the criminal process have more impacts on the court speeches and the procedures of their realization.

**Key words**: legal institute, criminal judgement, the criminal process